**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№354/2** **14 mart 2023-cü il**

**“Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi” barədə**

Auditor fəaliyyətində haqsız rəqabət və dempinq hallarının aradan qaldırılması, səmərəliliyin və göstərilən auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (Q.Əhmədov) tərəfindən xarici təcrübə nəzərə alınmaqla hazırlanmış “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi” təsdiq edilsin (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli), Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov), Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) və Etika, mübahisələr və intizam Komissiyasına (K.Hüseynov) tapşırılsın ki, təsdiq edilmiş intizam tədbirləri sisteminə uyğun olaraq Auditorlar Palatasının üzvləri tərəfindən auditor xidməti zamanı icra intizamının pozulması hallarının operativ araşdırılmasını təmin etsinlər və müvafiq intizam məsuliyyətinin tətbiq olunmasına dair təkliflərini Palatanın rəhbərliyinə təqdim etsinlər.

3. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, bir həftə müddətində “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi”nin Auditorlar Palatasının üzvlərinə çatdırılması təmin edilsin.

4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair intizam tədbirləri sistemi”nin mətnlərinin Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**